**AKİF MƏMMƏDLİ**
***AMEA Tarix İnstitutunun dissertantı***

# ORTA ƏSR KATEX ABIDƏLƏRI

Azərbaycanın Şimal-Qərb bölgəsində, Balakən rayonunun Katex kəndi ərazisində erkən orta əsrlərdən son orta əsrlərədək dövrü əhatə edən çox saylı qədim tarixi abidələr vardır.

Əgər ilkin arxeloji kəşfiyyat işlərinin bizə verdiyi məlumatları nəzərə alsaq, bu tarix antik dövrü, hətta daha qədim dövrü də özündə ehtiva edəcək. Çünki, 2009-cu ilin noyabr ayında AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun apardığı arxeoloji kəşfiyyat işləri bunu deməyə əsas verir. Belə ki, kəşfiyyat işləri aparılarkən Katexin "Baş Axı" adlandırılan ərazisində antik dövrə aid saxsı qablar, daha əvvlki dövrə aid daş əmək alətləri, o cümlədən mikrolitlər tapıldı. Bütün bunlar onu deməyə əsas verir ki, Katex Azərbaycan ərazisindəki Mezolit dövrü yaşayış məskənlərindən biridir.

Orta əsrlər dövrü isə Katexdə daha geniş izlənilir. Kəndin ərazisində tikintisi VI yüzilliyə aid olan "Böyük Sədd"in qalıqları, V-VII əsrlərə aid edilən "Cicixana" məbədi, VII-IX əsrlərə aid edilən və mənbələrdə "Katex Kilsəsi" kimi göstərilən "Yuxarı Katex məbədi", XIV-XVII əsrlərə aid edilən keşikçi qüllələri-dördkünc qalalar, 1752-ci ildə Katex çayın sağ sahilində tikilmiş məscid-mədrəsə bəhs olunan dövrə aid olan və qismən salamat qalan tarixi abidələrdir.

Bu abidələrdən yalnız "Böyük Sədd" qismən araşdırılmışdır. Qeyd etmək yerinə düşərdi ki, 1847-ci il, mayın 5-də bu səddin yaxınlığında rus generalı Şvardsın qoşunları ilə Şeyx Şamilin dəstələri arasında amansız bir döyüş olmuş və ruslar sarsıdıcı zərbə almışlar. Odur ki, qəzəblənən general Şvards Səddin dağıdılmasını əmr etmiş və xeyli hissəsini dağıtmışlar.

1864-cü ildə N.A.Volkonskinin yazdıgı arxiv materiallarında(10), A.Poserbskinin və K.Nikitinin qeydlərində məhz bu hadisədən bəhs edilmiş, Katex kəndi ərazisində qalmış Böyük Səddin divarları barədə məlumat verilmişdir.

1890-cı ildə bu bölgədəki xristian abidələrini araşdırmağa göndərilmiş A.S.Xa-xanov qədim Alban abidələri ilə bərabər Böyük Sədd barədə də məlumat vermişdir.

1836-cı ildə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının tapşırığı ilə A.Ələsgərzadə sovet dövrü ədəbiyyatında "Zaqatala Səddi" adlandırılan bu səddin tikilmə tarixini və təyinatını araşdırmağa çalışsa da bu işdə az-çox uğur qazanan E.A.Paxomov olmuşdur(12,68-90).

Qalıqları Katex və qismən də Muxax kəndində qalmış Böyük Səddlə bağlı araşdırmaların yekunu olaraq bu Səddin VI yüzillikdə tikildiyini və Şimaldan gələn türk tayfalarının axınlarının qarşısını almaq məqsədi güddüyünü qəti şəkildə deyə bilərik.

Verilən məlumatlara görə Sədd boyunca müəyyən məsafədən bir qüllə və bürclər olmuşdur ki, tarixdə bunun başqa bir anoloqu da Qara dəniz sahilinə yaxın bir yerdən başlayıb, Qafqaz dağlarının ətəyi ilə uzanan "Abxaz Səddi"dir.Tədqiqatçı V.P.Paçuliyanın araşdırmalarına görə, bu Səddə olmuş qüllələr bir-birindən bir ox uçuşu məsafəsində tikilmişdi ki, bununla da təhlükəni, vacib xəbəri ən qısa zamanda qüllələrdən birbirinə ötürərək Səddə nəzarət edən komandanlığa çatdırırdılar(9).

E.A.Paxomovun, yaşlı sakinlərin verdiyi məlumata görə Katex kəndinin mərkəzində, indiki şose yolunun keçdiyi yerdə Səddə bitişik, xeyli böyük dairəvi qala var idi (Səddin cənub tərəfində-M.A.). Səddin şimal tərəfində, digərinə yaxın bir məsafədə yarım dairəvi qala hələ qalmaqdadır.

Əldə olunan məlumatlara görə bu Sədd Sasani hökmdarları Qubad və onun oğlu Xosrov Ənuşirəvan tərəfindən Şimaldan gələn türk axınlarının qarşısını almaq məqsədilə tikilib (VI əsr). Müxtəlif mənbələr Səddin Şəkidən İberiyayadək uzandığını bildirir. Ötən əsrin 50-ci illərində tədqiqatçı E.A. Paxomov Səddin 70 kilometrlik məsafədə bünövrə yerlərini dəqiqləşdirmişdi.

**Cicixana məbədi.** Tərəfimizdən "Cicixana məbədi" adlandırılan bu qədim məbəd Balakən rayonunun mərkəzindən 10 km şimaldan şərqə tərəf, Zaqatalaya gedən yolun solunda, dağların arasında, meşənin içərisində qismən düzən yerdədir. Ətrafdakı qeyri-adi mənzərə, müxtəlif qaya və daş yığımları, çox əlverişli təbii-coğrafi şərait bir zaman burada qaynar bir həyatın olduğundan xəbər verir.

Çox qədim ibadət yeri olan Cicixana məbədi iki hissədən ibarətdir. Məbədin qərbindəki əvvəllər üs istiqmətdə girişin olduğu bu hissə-birinci hissə tağların birləşərək künbəz yaratdığı hissənin cənub, şərq və qərb girişləri olub və sonradan yalnız bir giriş saxlanıb, şərq və qərb girişi daşla hörülərək bağlanıb. Cənub girişin tağı daha böyük, qərbdəki bir az kiçik, şərqdəki isə daha kiçikdir. Qərb girəcəyinin içəri üzündə tağın sağ və sol tərəfində küncdə lap yaxınlıqda dördkünc, 30-40 santimetrlik, kənarına üzlü çay daşı qoyulmuş oyuq yeri vardır. Buradan şimala tağlı keçidlə üstü künbəz şəklində örtülmüş ibadət zalına keçilir. İbadət zalına keçən yerdə, qapının üstündə çox iri, təxminən 3 metrədək uzunsov çay daşı olub və qoparılaraq yerə salınıb. İbadət zalının uzunluğu 8, eni isə 5 metrdir.

İbadət zalının baş hissəsində, şərq qurtaracağında sağ tərəfində 70 sm-lik dairəvi oyuq vardır. Bu oyuğa saxsı küp yerləşdirilmişdi. Bu cür küp mehrab yerindən eyni məsafədə simmetrik şəkildə ikisi olub. Bu küplər ibadət zamanı oxunan duaların "təsirini artırmaq üçün" akustikanı gücləndirmək məqsədilə qoyulmuşdur.

Çay daşı ilə tikilən bu məbəd əhəng məhlulu ilə qurulub. Məbədin cənub-şərqində, divarın çöl tərəfində, küncdə çox nəhəng dağdağan ağacı bitib və qeyri-adi şəkildə məbəd divarına sarılıb. Daha əvvəl də qeyd etmişdik ki, dağdağan ağacının müqəddəs hesab edilməsi daha əski dinlərlə bağlı idi [2, 154].

Yüzilliklər boyu tədricən bitki çürüntüsü, torpaq qatı əlavə olunmuş və məbədin divarları 1-1,5 metr torpaq altında qalmışdır. Arxeoloji qazıntıların aparılması çox dəyərli məlumatlar əldə etməyə imkan verərdi.

Mərhum akamemik Ziya Bünyadov qeyd edirdi ki, Albaniyada ilk və eləcə də sonrakı kilsələrin çoxu köhnə dini ibadətgahların və məbədlərin yerində bərpa edilirdi [10, 205].

Haqqında bəhs edilən Cicixana məbədi də bu qəbildən olan abidələrdəndir.

Xristianlığın yayılmasının başlanğıc mərhələsinə aid olan abidələr əyani surətdə göstərir ki, Albaniyada kilsə memarlarının qarşısına çıxmış yeni vəzifə dərhal həll olunmamışdı. Yüzilliklər boyu təşəkkül tapmış ənənələrdən imtina etmək çətin idi. Buna görə də ilk xristian abidələri erkən bütpərəstlik tikililəri ilə böyük oxşarlığa malik olmuş və Albaniyanın sonrakı tarixi dövrdə tikilmiş kilsələrindən kəskin surətdə fərqlənmişdi [6, 150].

İlkin araşdırmaya görə, Cicixana məbədi V-VII yüzilliklərdə tikilib və yuxarıda deyildiyi kimi bu məbəd daha əvvəlki büdpərəst, yaxud atəşpərəstlik məbədinin yerində tikilib. Daha doğrusu, rekanstruksiya edilib.

**Qədim Katex məbədi.** Əlçatmaz dağların qoynunda, Kilsəçayın sol sahilində yerləşən bu məbəd şimal və qərb qonşularımızın millətçiliyi təbliğ edən tədqiqatçıları tərəfindən (T.Aytberov, D.L.Musxelişvili və digərlər-M.A) saxtalaşdırmaya məruz qalmışdır. Onların hər birisi bu abidəni öz adlarına çıxmağa çalışmışlar. Çox maraqlı quruluşu olan bu məbəd bəzi əlamətlərinə görə, xüsusilə məbədin şərq hissəsinin quruluşuna

görə Mazım çay məbədinə bənzəyir. Lakin, bu məbəd daha möhtəşəm, memarlıq cəhətdən daha kamildir. Burada pəncərələrin haşiyələri və karnizlərinin profili Kiş məbədində ki, kimidir [11, 20].

Məbəd əhəng daşı və şirindaş adlanan nisbətən rahat yonula bilən daşlarla tikilib. Məbədin içərisində, şimal divarına bitişik taxca hörülüb ki, biz ilk dəfə bura gələndə həmin yerdə insan sümükləri qoyulmuşdu. Zənnimizcə bu adət xristianlıqdan əvvəlki atəşpərəstlik, büdpərəstliklə bağlı adətləri xatırladır.

Araşdırılan digər məbədlərdən fərqli olaraq bu məbədə iki giriş vardır: biri-qərbdən, digəri isə şərq tərəfdəndir. XI yüzilliyə aid mənbələrdə məbəd haqqında müəyyən məlumat verilir. T.Aytberov da məhz bu mənbələrdəki, məlumatlardan istifadə etmiş və məlumatları saxtalaşdırmağa çalışmışdır [5; 3, 51].

Məbədin bu günədək qismən salamat qalmasına, həm də heç araşdırılmamasına səbəb, məbədin Katex kəndindən 10-12 km aralıqda, dağlar qoynunda yerləşməsidir. Həm də abidəyə gedən yolun olmamasıdır. Abidəyə getmək üçün at cığırından istifadə etmək və buz kimi soyuq Kilsə çayı qayaların dibi ilə bir neçə dəfə keçmək və çayın sol sahilindəki diki qalmaq lazımdır.

Əzəmətli Katex məbədi Kilsədağ adlanan dağın nisbətən düzən hissəsində, nəhəng ağaclarla əhatə olunmuş bir yerdə, qorunmaq üçün çox əlverişli bir mövqedə yerləşmişdir. Mənbələrin məlumatına görə, Kartli Katalikosu Melxisədəkin Msxet məbədinə verdiyi 1020, 1033-cü il tarixli sənədlərdə Eretidə Loqodexi monastırı və Zairi Kəndi arasında Katex kilsəsi qeyd olunur. Bəzi tədqiqatçılar Loqodexinin Lek dağı, Zairi kəndinin isə Car olmasını ehtimal edirlər(4,81).

Katex məbədi tağbəndli zal tipli sadə kilsələrin inkişafından yaranmış ilk günbəzli zallar memarlıq tipinə mənsubdur. Onun plan tərtibatı pilyastlar və altar absidasının çıxıntıların bir az irəli çəkilməsi və gücləndirilməsi ilə günbəz konstruktiriyasının daşınması üçün uyğunlaşdırılmışdır.

Tikintinin günbəz sisteminin statika tələblərinə cavab verməməsi abidəni tikən memarı bir-birinin üstündən sallanan tağlar sisteminin köməyi ilə günbəzin diametrini kiçiltməyə və bununla da onunaşırma qüvvəsini xeyli azaltmağa vadar etmişdir. Bəzi cəhətlərinə görə Katex məbədi Kiş məbədinə, bəzi cəhətlərinə görə Qum və Ləkit məbədlərinə [6, 152] oxşasa da, bu məbəd Alban xristian memarlığının nadir incisidir və tam analogiyası yoxdur.

Doğrudur, Katex məbədində pəncərələrin daxildən və xaricdən görünüşü Yeddi kilsə, Zəyzit və Kiş məbədlərindəkinə çox bənzəyir. Lakin bu məbəd Alban memarlığının təkrarsız bir nümunəsidir.

Həmin ərazidə məbəddən başqa tikililər də olmuşdur. Bunu oradakı dağıntılar da təsdiq edir. Abidəyə aid olanlar və gözlə görünənlər bunlardır. Lakin arxeoloji qazıntılar aparılarsa, burada Azərbaycan tarixinə dair çox dəyərli məlumatların əldə olunacağı şübhə doğurmur.

Katex kəndi ərazisində orta əsrlər dövrünə aid olan abidələr içərisində bu günədək heç araşdırılmamış abidə Katex çayının sağ sahilində hicri 1129-cu ildə inşa edilmiş məscid-mədrəsə kompleksidir ki, biz ondan bəhs edəcəyik.

Tədqiqata cəlb edilən bu abidə kompleksi bir neçə tikilidən ibarət olub və ətrafı qoruma divarı ilə əhatə olunmuşdu. Kompleksdən iki bina qismən salamat qalıb. Bunlardan biri üzərində süls elementli yazılı daş olan kiçik məscid binası, digəri isə daha böyük olub, bir neçə otaqdan ibarət mədrəsə binası ehtimal edilən tikilidir. Ərazidə bir neçə tikilinin qalıqları qalmaqdadır ki, bunların yardımçı təsərrüfat binaları olaması şübhəsizdir. Hətta orta əsrlər şərqində bu cür komplekslərə daxil olmuş "Şəfa evləri"-müalicəxananın olması da real görünür. Çünki, Katex çayından ayrılan kiçik bir qol bu

tikilinin lap yaxınlığından keçir və bu çaya enən cığır və onun yanında bünövrə qalıqları durur.

Şərq memarlığımda olan bu cür kompleksə karvansara və ticarət obyektləri də daxil edilir ki, buradan əldə olunan gəlir mədrəsə və "Şəfa evləri"nin saxlanmasına xərclənirdi.

Bəzi antik dövr müəlliflərinin məlumatına və tədqiqatçı S.Süleymanovanın araşdırılmalarına görə antik dövrdə və sonrakı dövrlərdə Şamaxı və Şəkidən qərbə gedən ticarət yolu buradan-haqqında bəhs etdiyimiz abidənin yaxılığından keçərək Gürcüstana, oradan da Romaya gedirdi. Odur ki, belə işlək ticarət yolu üzərində ticarət məntəqəsinin, yaxud bazarın da olması çox təbii idi. İndi də buradan keçən yol beynəlxalq yoldur və demək olar ki, qədim marşrut üzrə davam edir.

Bölgədəki epitafiya yazılarının oxunması yuxarıda qeyd edilən faktı təsdiq edən amillərdəm biridir. Bu sahənin tanınmış mütəxəsislərindən olan Məşədixanım Nemətova bölgədə bir çox tanınmış din xadimlərinin qəbrüstü yazılarını oxuyaraq bu nəticəyə gəlmişdir ki, Şimal-Qərbi Azərbaycanda XVIII-XIX yüzilliklərdə bəzi dini-fəlsəfi cərəyanlar geniş intişar tapmışdı(7;8). Xüsusilə nəqşbəndi təriqəti geniş yayılmışdı. Təsadüfi deyil ki, XIX yüzilliyin II yarısında bu təriqətin liderlərindən bir neçəsi məhz bu bölgədə olmuşdu. Talalı Şeyx Əhməd Əfəndinin adı isə çoxlarına bəllidir. Məşədixanım Nemətovanın araşdırdığı fakt Həsən Əfəndinin nəşr etdirdiyi sufizmin Qafqazda yaranması və inkişafı tarixindən bəhs edən "Xulasatul adab" kitabında da öz əksini tapmışdır.

Digər tərəfdən, böyük sufi şairi Yunis İmrənin şeir və ilahələri bu bölgədəki "mövlud" adlanan dini mərasimlərdə bu gün də oxunur. Bütün bunlar bir daha yuxarıda deyilən faktı-Katex kəndinin XVIII-XIX yüzilliklərdə nəqşbəndi təriqətinin ən geniş yayıldığı yerlərdən biri olduğunu sübut edir. Bu halda, Katexdə qeyd etdiyimiz kimi "nəqşbəndi" məktəb mədrəsəsinin olması təbiidir.

Nəzərə alsaq ki, sonralar Qafqazda çarizmə qarşı mübarizədə ideoloji silaha çevrilmiş müridizm özü nəqşbəndilikdən nəşət edib yaranmışdır. Sonralar Qafqazda müridizm lider olmuş azadlıq mücahidi Şeyx Şamil rus işğallarına qarşı mübarizədə Car-Balakən və İlisuya arxalanmış, bir neçə həlledici döyüşlər də burada baş vermişdi.

Katex kəndi ərazisində üç böyük və bir neçə kiçik məscid var ki, bunlardan biri XV, digərləri isə XIX yüzilliklərdə inşa edilib və hamısı fəaliyyətdədir. 17 qəbirstanlıq var və bunların çoxunun sahəsi xeyli böyük, həm də qədimdir.Bu fakt orta əsrlərdə Katexdə əhalinin xeyli sıx yaşadığını və ictimai həyatın fəal olduğunu göstərir.

### *ƏDƏBIYYAT*

1. Azərbaycan tarixi. Z.M.Bünyadovun redaktəsi ilə, I cild. Bakı: Azərnəşr, 1994, 686 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild. Bakı: Elm, 2007, 608 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Bakı: Şərq-Qərb, 2007, 304 s.
4. Məmmədova G. Kiş Qafqaz Albaniyasının Azərbaycanın görkəmli memarlıq abidəsi. Bakı: Qızıl Şərq, 2002, 104 s.
5. Nemətova Məşədixanım. Əsrlərin daş yaddaşı. Bakı; "İşıq", 1987. 64 s.
6. Nemətova Məşədixanım. Azərbaycanda pirlər. Bakı; Azərnəşr, 1992. 104 s.
7. Sadiqov M.O. İngiloyların mənşəyi haqqında. AMEA Tarix İnistitutunun elmi əsərləri. XX cild. Bakı: Təhsil Nəşriyyat-Poliqrafiya, 2007, s. 38-42.
8. Алиев К. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
9. Айтберов Т.Закавказские аварцы. Махачкала, 2000, 196 с.
10.Волконский Н.А. Трехлетие лезгинской кордонной линии 1847-1849. Кавк. Сборн.,IX, (1885), с.207- 208.
11.Пахомов Е.А. Закатальская длинная стена. Труды АГУ.серия историческая,

Вып.I. 1950.с…68-90.
12.Пачулиа В.П. Падение Анакопии. Легенды Кавказского Причерноморъя. Москва; «Наука», 1986. 240 с.

**АКИФ МАМЕДЛИ**

**СРЕДНЕВЕКОВЬЕ ПАМЯТНИКИ КАТЕХА**

В статье в краткой форме рассматриваются села Катех Белоканского района Азербайджанской Республики. В результате исследования автор пришел к такому выводу, что Катех с древних времен являлся оживлюнным населенным пунктом.

**AKIF MAMMADLI**

**MEDIEVAL MONUMENTS OF KATEKH**

Medieval monuments of the village Katekh of Balakan district of the Azerbaijan republic are briefly considered in the article. As a result of research the author has come to such a conclusion that Katekh since the ancient times was brisk settlement in strategically important point of Southern Caucasus.

***Rəyçilər: t.e.n.X.S.Qasımov, t.e.d.Q.S.İsmayılov.***
***AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın orta əsrlər tarixi» şöbəsinin 05 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***


Qədim Katex məbədi.


"Böyük Səddin" qalıqları.


Cicixana məbədi.

CAVİD BAĞIRZADƏ
*Gəncə Dövlət UniversitetininAzərbaycan tarixi kafedrasının baş müəllimi*

# İLK ORTA ƏSR HİRƏK QALASININ TARİXİ-ARXEOLOJİ TƏDQİQİ

İlk orta əsrlər dövrünə aid Azərbaycanın müxtəlif bölgələrində mühüm ticarət – karvan yollarının üstündə yerləşən, eləcə də müvafiq dövrün şəhərlərinin və digər yaşayış məntəqələrinin müdafiə sisteminin möhkəmlənməsinə xidmət edən bir çox qalaları mövcud olmuşdur. Belə qalalardan biri də müasir Ağdərə ərazisində (hal – hazırda inzibati ərazi bölgüsünə görə Tərtər rayonu ərazisində) qalıqları duran Hirək qalasıdır.

Hirək qalası ilk orta əsrlərin mühüm ticarət – karvan yollarından biri olan Bərdə – Dəbil və Bərdə – Gəncə – Tiflis ticarət yolunun üstündə yerləşməklə bir çox ilk orta əsrlərin qalaları kimi ticarət – karvan yoluna nəzarət etmək, yolçuların təhlükəsizliyini təmin etmək, eləcə də karvansara rolunu oynamaq kimi xüsusiyyətlər daşımışdır. Həmçinin bu qala Albaniyanın paytaxtı Bərdənin yaxınlığında yerləşməklə ölkə paytaxtının müdafiə sisteminin möhkəmlənməsinə və Bərdənin Ana şəhər ilə, Şətəl yaşayış məntəqəsi ilə, Gəncə ilə əlaqələndiricisi rolunu oynamışdır.

Bərdədən Dəbilə gedən ticarət – karvan yolu Tərtər çayı boyunca Cənubi – qərbə doğru uzanmaqla Bərdədən Əndorab qalasına, Əndorabdan Hirək qalasına, oradan Çaraberd qalasına, buradan Kaqankata və s. istiqamət almışdır. Bərdədən başlanan yol Hirək qalasında iki yerə ayrılmışdır. Yollardan biri də Hirək qalasından Şətəl qalasına (Goranboy rayonunun Səfikürd kəndi yaxınlığında), buradan II Kürəkçay qalasına (Goranboy rayonunun Qaradağlı kəndi yaxınlığında), buradan da Gəncə şəhərinə, oradan da Şəmkirə, Şəmkirdən Hunan şəhərinə, Hunandan da Tiflisə qədər uzanmışdır.

Beləliklə, Dəblidən və Tiflis istiqamətindən Bərdəyə gələn yollar Bərdə yaxınlığındakı Hirək qalasında qovuşurdu.

Bu abidə Ağdərə rayonunun Talış kəndindən (indiki Tərtər rayonunun Talış kəndi) 3 km şimal-qərbdə, xırda meşəlikdən ibarət bir dağın ətəyində yerləşir. Abidə böyük bir kompleksdən, yəni karvansaradan, XII əsrə aid məbəddən və bir neçə xırda yardımçı binalardan ibarətdir. İlk görüşdə diqqəti cəlb edən karvansara ətrafına divar çəkilmiş, 7 otaqdan və böyük zaldan ibarətdir. Otaqların üstü arka formasında örtülmüşdür. Bina bişmiş kərpicdən tikilmişdir. Otaqlar şimal-qərb tərəfdən nömrələnməklə ölçüləri aşağıdakı kimidir:

I otaq 8x5 m; II otaq 8x8 m; III otaq 8x8 m; IV otaq 8x5 m; V otaq 8x7 m; VI otaq 6x7 m; VII otaq 7x7 m.

Otaqlara içəridən-içəriyə və həyətdən qapı yerləri vardır. Göstərilən otaqlar karvansarının cənub-qərb tərəfində bina edilmişdir. Karvansaranın şimal-şərq tərəfində isə 25x5 m ölçüdə böyük bir zal vardır. Zalın arxa divarının içərisində bir-birini əvəz edən üçkünc formalı dilovlar düzəldilmişdir. Orta hissədə bu dilovların eni 1,3 metrdir.

Karvansaranın qala içərisindəki ümumi uzunluğu 59 metrdir, eni isə 28-30 metrdir.

Binada istifadə olunmuş kərpiclər kvadrat formada olub, 20x20x4 sm və 24x25x5 sm ölçüdədir.

Karvansaranın ortasında eni 14 metr olan böyük həyəti vardır. Karvansaranın qala divarları da eyni tipli kərpicdən kvadrat formada hörülmüş küncləində isə yarımdairəvi bürclərin yalnız izi qalmışdır. Karvansaranın həyətindən yol keçdiyi üçün onun iki qapısı vardır. Onlardan biri sarayın şimalında, digər isə cənubundadır. Hər iki qapı tam uçub dağılsa da, onların bürcləri durur.

Qala divarlarından kənarda, karvansaranın şimal-qərbində təxminən 50-60 metr məsafədə üstü tağla örtülmüş və çay daşından tikilmiş üç ədəd yarımqazma evlər vardır. Bu evlər təxminən 4x5 metr və 4x6 metr ölçüsündə olub, olduqca kiçikdirlər. Ehtimal ki, onlar bir növ tövlə rolunu oynamışdır. Otaqlardan azacıq aralı, kərpicdən dairəvi formada tikilmiş bürc-qaravulxana (gözətçi yeri) qalığı vardır.

Abidə Ağdərə bölgəsinin yerli əhalisi olan azərbaycanlılar (müsəlmanlar) tərəfindən Hürü qarı sarayı adlanır. Rəvayətə görə iki gözəl qızı olan Hürü qarı öz qızlarını İran şahlarından qorumaq üçün gəlib, bu dar dağ keçidində qala tikdirmişdir. Guya hətta o, qızlarını gizlətmək üçün VII otağın qapısı üstündə, divarın içərisində xüsusi sənduqə düzəltmişdir. Maraqlı burasıdır ki, hazırda xarabası qalmaqda olan və saraydan 25x30 metr qərbə olan məbəd Hürü qarı məbədi adlanır və oradakı qəbrin isə Hürü qarıya məxsus olduğu söylənilir. Lakin bu barədə dəqiq fikir demək çətindir (8).

Karvansara ərazisinə yerüstü baxış keçirərkən əldə edilən qab hissələri aşağıdakılardan ibarətdir:

**1.Forması məlum olmayan qab hissəsi**. Qab narın gildən dulus çarxında hazırlanmış və qırmızı rəngdə bişirilmişdir. Bu qab hissəsinin xarakterik cəhəti ondan ibarətdir ki, onun üzəri cilalanmış və qırmızı rəngdə anqoblanmışdır.

**2.Xeyrə tipli qab hissəsi**. Qab qalın divarlı olub, əldə hazırlanmışdır, üzəri isə barmaqla basma üsulu ilə nöqtələnmiş və cızma üsulu ilə paralel-kəsik xətlərlə bəzədilmişdir.

**3.Xeyrə tipli qabın yan hissəsi**. O, dulus çarxında hazırlanmışdır. Onun xarakterik cəhəti kənarlarının yana doğru geniş əyilməsidir. Qab dayazdır.

**4.Gil çıraq**. Çıraq əldə hazırlanmış və armudvaridir. O, geniş və yastı oturacaqlardan boğazına doğru daralır.

Hürü qarı karvansarasından bir qədər cənuba doğru olan ərazidə 1962-ci ildə yerli əhali kənd təsərrüfatı işləri aparan zaman pul dəfinəsi tapmışdır. Bu pullar, əsasən, XVII-XVIII əsrlərə aid olub, əsasən, Qəndəharda, İsfahanda, Təbrizdə, Məşhəddə və Gəncədə zərb edilmişdir (8).

Qeyd etmək lazımdır ki, bu ərazidə hazırda işlək vəziyyətdə olmayan orta əsrlərə aid karvan yolunun izi vardır. Həmin yolla əlaqədar olaraq Tərtər çayı üzərində tikilmiş körpü isə hazırda uçub dağılmışdır. Abidənin tikinti xüsusiyyətləri və bilavasitə karvan yolu üzərində tikilməsinə əsaslanaraq, onun karvansara olduğu və təxminən XIV-XV əsrlərdə bina edildiyini söyləmək olar.

Talış kəndinin təxminən bir kilometr cənubunda yerləşən Xanəgah düzündə, hazırda xarabası qalmaqda olan abidələrdən biri də Arzu bəy qalasıdır. Bu abidə tamamilə dağılmışdır. Yalnız bəzi yerlərdə çay daşından tikilmiş divarın izi qalmışdır.

Qalanın ərazisi kvadrat formada olub, ölçüsü təqribən 9x120 metrdir. Ərazisi cənubdan şimala doğru maili olub, cənub tərəfdə təpə ilə əvəz olunur. Qalanın içərisində müxtəlif binaların xarabaları çox çətinliklə seçilir. Lakin qalanın içərisində tək-tək halda kvadrat kərpiclərə də təsadüf olunur. Arzu bəy haqqında heç bir məlumat yoxdur. Qalada uzun müddət əkin işi getdiyindən onun xarabalığı dəfələrlə təmizlənmişdir. Odur ki, buradan yerüstü material da toplamaq mümkün olmadı. Buna görə də qalada qazıntı işləri aparmadan onun haqqında heç bir fikir söyləmək olmaz. Tər-tər dərəsi ilə cənub-qərbə doğru irəlilədikcə arxeoloji abidələrin bolluğu daha aydın nəzərə çarpır.

Cəlaləddin Manqburnunun vəziri Şərəf əl-Mülkün tutduğu qalaların sırasında müasir Ağdərə bölgəsində yerləşən Hirək və Çaraberd qalalarının adları çəkilir. Belə ki, Şərəf əl-Mülk atabəy Özbəkin tərəfdarları gizlənən qalaları ələ keçirməyi qərara aldı. Bunun üçün o, qorxutmaq, intiqam almaq, adamları pulla satın almaq və s. metodlardan istifadə edirdi. Dizmar qalasını onun əsas mühafizə başçılarını fəxri paltarlar, qızıl və hədiyyələr verməklə ələ keçirdi. Sonra o, atabəy Özbəkin baş hacibi Nəsrəddin Mə-

həmmədi həbs edərək Qəhrəm qalasını ondan aldı və böyük məbləğdə pul ələ keçirdi. Elə bu vaxt (yəni 1227-ci ildə-C.B.) Sultanın Gəncədəki canişini Seyfəddin Qaş-Qara öldü və vəzir Şərəf əl-Mülk Qaş-Qaranın naibi Şəmsəddin Gərşəsbin əlindən Hərk (Hirək-C.B.) və Cərəbərd (Çaraberd) qalarını aldı (1, s.142).

XIV əsrdə yaşamış Həmdullah Qəzvini Xirək adlı yeri Bərdənin ətrafında yerləşməsini yazır. Hal-hazırda Ağdərənin Talış kəndinin yaxınlığında yerləşən Hirək qalası Bərdədən təxminən 24-25 km məsafədə yerləşir.

Akademik Z.Bünyadov Xirək dağı və yaşayış yerini Gəncə yaxınlığındakı indiki Hacıkəndlə eyniləşdirir. (1, s.211)

Həmdullah Qəzvini Hirək adlı yerin və yaylağın Bərdəyə aid olduğunu yazmışdır. Həmdullah Qəzvini Qarabağın Hirək (Xirək) ərazisini şərh edərkən onun əlverişli təbii şəraiti haqqında qiymətli məlumat verir (15, s.54).

Mənbədən də aydın olur ki, Hirək məhz Bərdə yaxınlığındadır və Qarabağın gözəl yaylaqlarından biridir. XVIII əsrdə Hirək ərazisinin daxil olduğu bölgədə Qarabağın beş məlikliyindən biri – Talış (Gülüstan) məlikliyi yaranmışdı.

Mənbələrdə olan məlumatlar, eləcə də Hirək qalasının qalıqları, arxeoloji sübutlar Hirək adlı yerin Gəncə ətrafında olmadığını göstərir. 1139-cu il zəlzələsinə qədər indiki Kəpəz dağının – yəni Alparaq dağının mənbələrdə «əl-Hirək» şəklində öz əksini tapması Hirək adlı yerin, yaylağın Gəncə ətrafında olması fikrini ortaya qoymuşdur. Lakin yuxarıda qeyd etdiyimiz kimi bu fikir dolaşıqlığından irəli gələn bir yanlışlıqdır.

Mənbələrdən verilən məlumatlardan aydın olur ki, Ağdərə ərazisində bir çox müdafiə-istehkam xarakterli, eləcə də ticarət-karvan yollarına nəzarətedici funksiya daşıyan qalalar mövcud olub. XIII əsrdə monqolların hücumları zamanı Ağdərə ərazisində, Tərtərçay vadisində Xaçın knyazı Həsən Cəlalın möhtəşəm, alınmaz qalalarının monqollar tərəfindən mühasirəyə alınması, tutulması haqqında tarixi məlumatlar vardır.

### ƏDƏBİYYAT:

1.Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2007.
2.Ələkbərov A. Orta əsrlərdə Bərdədən cənuba gedən karvan yolları haqqında /Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi. Elmi-Praktik konfransın materialları/ Bakı, 2009.
3.Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, 1993.
4.Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (tərcümə, tərtib, qeyd və şərhlər H.Məmmədovundur) Bakı, 2000.
5.Məmmədov A. Arxeologiya və Etnoqrafiya. Bakı, 2008.
6.Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə. Bakı, 1993.
7.Məmmədov A., Məhərrəmov A. Goranboy orta əsrlərdə. Bakı, 1990.
8.Məmmədov A., Cəfərov P., Novruzova R. Ağdərə bölgəsinin ilk orta əsr abidələri. /Tarix və onun problemləri, №1 Bakı, 2007/.
9.Məmmədov A., Məmmədov K. Tərtər bölgəsində orta əsr Əndorab qalası /Tarix və onun problemləri №4, Bakı, 2008/.
10.Məmmədov A., Rəcəbov M. Tərtər bölgəsinin orta əsr abidələri /Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi. Elmi-Praktik konfransın materialları/ Bakı, 2009.
11.Məmmədov A., Hacıyev G. Orta əsr Şutur (Şətəl) şəhərinin arxeoloji tədqiqinə dair / Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illi. Elmi-Praktik konfransın materialları/ Bakı, 2009.
12.Mehdiyev Ş.Tərtər çayı vadisində müdafiə qalaları haqqında /ÜİKÇİ-nin 70 illiyinə həsr olunmuş elmi konfransın materialları, Bakı, 1989/.
13.Vəlixanlı N. IX-XII əsr ərəb-coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
14.Piriyev V. Azərbaycan XIII – XIV əsrlərdə, Bakı, 2003.

15.Əkut al-Xamavi, Mudcam al-buldan. Xamdullax Kazvini. Nuzxat al-kulub, Baku, 1983.

**JAVID BAGIRZADE**
***Head teacher of the department of Azerbaijani History of Ganja State University***

## THE HISTORIC – ARCHEOLOGICAL INVESTIGATION OF THE EARLE MIDDLE AGES HIREK TOWER

The Hirek Tower is one of the towers having an important strategical position in the Early Middle Ages. The Hirek Tower was located on the roods Berde – Debil and Berde – Ganja which are Considered to be important trade karvan ways. The wins of the Hirek are situated near The Talish village in the region of Agdara (present Terter). The Hirek Tower was built in order to control the trade roads, provide security, as well as to act as a karvansaray (like inns). A lot of archeological materials were found in thus area.

**ДЖАВИД БАГИРЗАДЕ**
***Гянджинский Государственный Университет старший преподаватель кафедры истории Азербайджана***

## АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ХИРАКСКОЙ КРЕПОСТИ В РАННИЕ СРЕДНИЕ ВЕКА

В период раннего средневековья Хиракская крепость наряду с другими имела стратегическое значение, она распологалась на важном торговом пути Барда - Дабиль и Барда – Гянджа. Развалины этой крепости до сих пор находится на территории села талыш Агдеринского (нынешний Тертер) района. Эта крепость была построена для защиты и охраны дорог, для контроли караванных путей и являлась также каравансараем. Там были обнаружены много археологических материалов.

***Rəyçilər: t.e.n.A.Cavadov, t.e.d.A.Məmmədov.***
***Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının 29 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №07).***